# İşğaldan azad olunmuş bölgələrimizdə abadlıq-quruculuq işlərinin aparılması sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir



***Azərbaycan Cənubi Qafqazda özünün siyasi, iqtisadi və hərbi reallıqlarını yaratmışdır. Bu baxımdan iyunun 26-da –Silahlı Qüvvələr Günündə Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfərləri strateji cəhətdən mühüm önəm daşıyır. Əlbəttə, əsas məqam regionun iqtisadi cəhətdən inkişaf etdirilməsi, məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması üçün lazımi şəraitin yaradılmasına hesablanıb. Bundan əlavə, Laçın və Kəlbəcər rayonlarının strateji önəmini nəzərə alsaq, regionda Azərbaycan Ordusunun tam möhkəmlənməsinin böyük əhəmiyyəti var.***

Baxmayaraq ki, müharibə artıq bitmiş, üfüqdə sülh reallıqları görünməyə başlamışdır. Lakin ordumuzun revanşist qüvvələrə qarşı sarsılmaz gücə sahib olmasının vacibliyi hər zaman aktuallığını da qoruyub saxlayacaqdır. Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev Kəlbəcər rayonunda komando hərbi hissəsinin açılışında çıxışı zamanı dedi: "Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziski cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi qələbə ilə fəxr edəcəyik"

Əlbəttə, səfər infrastruktur layihələrin həyata keçirilməsi, bu ərazilərdə dağılmış iqtisadiyyatın bərpa olunması və təməlqoyma mərasimləri, hərbi hissələrin açılışı, təhlükəsizlik məsələlərinin həll olunması baxımından, habelə Ermənistan tərəfinə verdiyi ciddi mesajlarla son dərəcə əhəmiyyətlidir. Bu səfər, eyni zamanda, Azərbaycan dövlətinin, xüsusilə də dövlət başçısının işğaldan azad edilmiş ərazilərdə sülhün və təhlükəsizliyin yaradılması baxımından, eyni zamanda Azərbaycan–Ermənistan sərhədində təhlükəsizlik məsələsinin həll olunmasına nə dərəcədə önəm verdiyini bir daha ortaya qoyur.

Göygöl rayonundan başlayan Toğanalı–Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi, Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" kiçik su elektrik stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı, Kəlbəcər – Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlər, Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsinə baxış, Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanışlıq, Kəlbəcər şəhərinin baş planının təqdim edilməsi və regionda nəinki Azərbaycan, bütövlükdə, Cənubi Qafqaz üçün mühüm əhəmiyyət daşıyacaq işlərin gedişatından xəbər verir. Həm Zəngəzurda, həm də Qarabağda yol təsərrüfatı sahəsində genişmiqyaslı işlər görüldüyünü qeyd edən dövlətimizin başçısı bildirib ki, elektrik enerjisi və yol əsasdır, bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Bu gün mənə, eyni zamanda, digər infrastruktur layihələrinin icrası ilə bağlı məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində – müharibədən cəmi ilyarım keçib – bu genişmiqyaslı işlərin görülməsi həm gücümüzü, niyyətimizi, iradəmizi, həm xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Silahlı Qüvvələr Günündə reallaşan səfərin düşmənə ötürəcəyi ultimativ cəhətlərindən biri də Kəlbəcərdə İşğal və Zəfər muzeyləri kompleksinin, habelə, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, İstisu istehsalı zavodunun təməlinin qoyulması, "Çıraq-1" kiçik su elektrik stansiyasının tikintisi ilə tanışlıq olub. Burada dövlətimizin başçısına hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə məlumat verilib.

Prezident İlham Əliyevin Kəlbəcər rayonunda İstisu sanatoriyasının təməlini qoyması isə regionun yaxın zamanlarda reallaşacaq turizm potensialından xəbər verir.

Düşməndən təmizlənmiş ərazilərdə də sərhəd postlarının yaranması, təhlükəsizlik məsələləri, Azərbaycan Silahlı Qüvvələrinin bu ərazilərdə xidmət keçməsi üçün yaradılmış şərait və s. bütün bunlar möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət başçısı qeyd etdi ki, Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi – artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq – Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Azərbaycan Prezidenti qeyd edib ki, artıq bu proses başlayıb və ilk növbədə, Qarabağda və Şərqi Zəngəzurda hərbi gücümüz daim möhkəm olmalıdır, ona görə bugünkü mərasim rəmzi məna daşıyır.

Bir sözlə, Azərbaycan Ermənistan tərəfindən uzun illər vandalizmə məruz qalmış torpaqların abadlaşdırılması, regionun çiçəklənməsi üçün əlindən gələni edir. Regionda sülhün möhkəmlənməsi üçün də Azərbaycan tərəfi fəallıq göstərir. Dövlətimiz 44 günlük Vətən müharibəsi bitdikdən dərhal sonra Ermənistana sülh təklif edib. Ermənistanın torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlamasını nəzərə alsaq, Azərbaycanın müharibə bitən kimi sülh təklif etməsi təqdirəlayiq haldır. Bu, o deməkdir ki, Azərbaycan ərazisinin böyük hissəsini işğal altında saxlayan ölkə ilə müharibədən qalib çıxmasına baxmayaraq, qarşı tərəflə sülhə hazırdır və gələcəyə baxır. Ermənistan və Azərbaycan arasında sülh isə bütün Cənubi Qafqaz regionu üçün yeni imkanlar, əmin-amanlıq və inkişaf vəd edir.

Cənubi Qafqaz ölkələri – Azərbaycan, Ermənistan və Gürcüstan müstəqillik əldə etdikdən sonrakı 30 il ərzində Ermənistanın ərazi iddiaları və işğal siyasəti üzündən üçtərəfli formatda əməkdaşlıq və inteqrasiya baş tutmamış, normal münasibətlər qurulmamışdır. Halbuki, Azərbaycan və Gürcüstan ikitərəfli formatda çox yaxın qonşuluq və dostluq münasibətləri qurublar və uzun müddətdir ki, münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu da həm Azərbaycanın, həm də Gürcüstanın inkişafına töhfə verib, milli mənafelərinə xidmət edib və təhlükəsizliyini gücləndirib. Lakin Ermənistanın təcavüzkar siyasəti Cənubi Qafqazın potensialının tam gerçəkləşməsinə əngəl törədir, bölgə xalqlarının sülh və əmin-amanlığına ciddi təhdidlər yaradır. Belə siyasət bütün bölgə ilə yanaşı, ilk növbədə Ermənistanın özünə ciddi zərər vurur və onu inkişafdan on illərlə geri salır. Əgər Ermənistan bu ağır və miskin durumdan, xarici yardımdan asılılıqdan xilas olmaq istəyirsə, sülh prosesinə qoşulmalı, sülhün gətirdiyi imkanlardan istifadə etməli və təcriddən çıxmalıdır. Amma Ermənistan tərəfdən Azərbaycanın sülh çağırışlarına və təşəbbüslərinə cavab olaraq, bəzi müsbət siqnallar eşidilsə də, praktik baxımdan ciddi irəliləyiş yoxdur.

Bu günlərdə Bakıda keçirilən IX Qlobal Bakı Forumunda çıxışı zamanı Prezident İlham Əliyev qarşı tərəfə belə bir ritorik sual ünvanladı ki, "Ermənistan Cənubi Qafqazda sülh istəmirsə, istədiyi nədir?". Ermənistan müharibə yolunu seçərsə, bu, onlar üçün fəlakətlə yekunlaşacaq. Nə müharibə, nə sülh yolunu seçərək, vaxt uzatmağa çalışsalar və müxtəlif formalarda Qarabağdakı ermənilər üçün status tələb etsələr, bu, Azərbaycan üçün qəbuledilməzdir, azərbaycanlılar da Qərbi Zəngəzurda özləri üçün status tələb edəcəklər. Beləliklə, sülh yolu həm Ermənistan və Azərbaycan, həm də bütövlükdə Cənubi Qafqaz üçün ən düzgün yoldur. Bu gün Ermənistanın üçtərəfli Cənubi Qafqaz formatından imtinası, onun ATƏT-in Minsk qrupunu yenidən dirçəltmək ümidləri ilə eyni vaxtda baş verir. Amma artıq reallıq Minsk qrupunun mahiyyət etibarilə 44 günlük Vətən müharibəsində Azərbaycanın zəfərindən sonra tarixin arxivinə düşdüyünü göstərir. Bu həqiqəti bu günlərdə Bakıya səfər edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov da dolayısı ilə etiraf etdi. Bunun müqabilində isə sağlam düşüncə Cənubi Qafqazın sülh, inteqrasiya və inkişaf məkanına çevrilməsi prosesinin başlanması üçün Azərbaycan, Ermənistan və Gürcüstanın üçtərəfli formatda dialoq və təmaslarının zəruri olduğunu diktə edir.

Ermənistan tərəfi aydın görməlidir ki, Azərbaycan tərəfi qısa müddətdə regionda hansı xariqələr yaradır. Qısa müddətdə bu qədər iş görmək və prosesin sürətlə davam etməsi Ermənistan üçün alçaltmazdır. Torpaqlar işğalda ikən Ermənistan region üçün heç bir şey etməyib, əksinə, ölkədə soyğunçuluq, talançılıq xroniki hal alıb. Danılmaz həqiqətdir ki, Ermənistanın normal iqtisadi sistemə qayıtması, vətəndaşlarının normal maddi şərtlər altında yaşaması yalnız Azərbaycanla gələcəkdə imzalanacaq sülh müqaviləsindən, ölkəmizlə normallaşdırılacaq münasibətlərindən keçir. Azərbaycanın regionda sülhün möhkəmləndirilməsi üçün atdığı addımlara adekvat cavab verməK öncə Ermənistanın öz xeyrinədir.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***